Azərbaycan
Milli Antidopinq Agentliyi

# 2021

# İLLİK HESABAT



AMADA
STAY CLEAN

# MÜNDƏRİCAT


**1**

2 **Giriş**

6 **Test Proqramı**

7 Milli Test Proqramı

8 Nümunələrin aylar üzrə bölünməsi

9 Test bölüşdürmə planı

10 Test qrupu

11 Nümunələrin respublika üzrə bölünməsi

12 Digər ölkələrdə sifariş olunan idman növləri

14 Beynəlxalq test sifarişləri

**2**

**AQP**

16 Anti dopinq qayda pozuntuları

Prioritetlər

Strateji məqsədlər

19 İctimaiyyətə açıqlama

**3**

20 **Təhqiqat**

22 **Təhqiqat aparılan idman növləri**

23 **Seminarlar**

**3**

24 **Beynəlxalq Fəaliyyət**

25 Prinsiplər

26 Fəaliyyətlər

28 Beynəlxalq görüşlər

29 Beynəlxalq layihələr

33 Xronoloji qrafik

**4**

36 **Təhsil və maarifləndirmə**

37 Giriş

39 Seminarlar

40 Vebinarlar

41 Təbliğatlar

42 Tədbirlər

**5**

44 **Media və kommunikasiya**

KİV-lə əməkdaşlıq

45 Sosial media layihələri

# Direktordan ön söz

2021-ci il idman dünyası üçün bir çox əlamətdar hadisələrlə zəngin oldu. Pandemiya səbəbindən təxirə salınmış Tokio Yay Olimpiya və Paralimpiya oyunları, futbol üzrə Avropa çempionatı kimi mötəbər tədbirlər başda olmaqla, bir çox idman yarışlarının keçirilməsi idman sahəsində yenidən böyük canlanma yaratdı. Bu, həm də idmanın əhəmiyyətini və həyatımızda tutduğu yeri bir daha göstərdi. İdman ölkəsi olan Azərbaycan da 2021-ci ilə böyük uğurlar sığdıra bildi. İdmançılarımız Tokio Yay Olimpiya Oyunlarında 7 medal əldə etdilər. Paralimpiyaçılarımız isə qazandıqları 14 qızıl, 1 gümüş və 4 bürünc medalla paralimpiya tariximizin ən böyük uğuruna imza atdılar və Azərbaycan ölkələrin sıralamasında ilk onluğa daxil oldu.

Respublikamız mötəbər idman yarışlarının təşkilatçısı kimi də böyük nüfuza malikdir.

Bu il bir çox beynəlxalq yarışa ev sahibliyi edən Azərbaycanda futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 oyununun keçirilməsi isə ölkəmiz üçün daha bir tarixi hadisə idi.

Bütün bunlarla yanaşı, ölkədə təmiz idman dəyərlərinin, ədalət prinsipinin qorunması, dürüst və bərabər idman mühitinin təmin edilməsi baxımından da geridə qoyduğumuz il əlamətdar hadisələrlə yadda qaldı. Yeni Ümumdünya Antidopinq Məcəlləsi və yeni standartları məhz 2021-ci ildə tətbiq edilməyə başlandı. AMADA-nın əvvəlcədən gördüyü tədbirlər, apardığı genişmiqyaslı maarifləndirmə nəticəsində ölkəmizdə yeni məcəllənin və standartların tətbiqi uğurla həyata keçirildi.

Hesabat ili ərzində bərabər imkanların və sağlam rəqabətin olduğu idman mühitinin, dürüst idmançılar üçün ədalətin təmin edilməsi, ölkəmizin təmiz idman imicinin qoruması üçün fəaliyyətimizi davam etdirdik. AMADA ölkədə effektiv dopinq nəzarətini həyata keçirməklə yanaşı, qlobal səviyyədə dopinqlə mübarizəyə töhfələr verməkdə davam edir. Agentliyin təşəbbüsü ilə Avropa Şurası çərçivəsində bir sıra layihələr həyata keçirilir. Həyata keçirilməsinə 2020-ci ilin dekabrında başlanılan antidopinq icraatı zamanı idmançıların hüquqlarının təminatı ilə bağlı layihə üzrə yekun hesabat təqdim olunaraq müzakirə edildi. AMADA-nın antidopinq sahəsində gender bərabərliyi ilə bağlı digər beynəlxalq layihəsi Avropa Şurasının strateji prioritetlərindən hesab edildiyi üçün layihənin daha əhatəli formada həyata keçirilməsi məqsədi ilə Avropa Şurası Gender Bərabərliyi üzrə Xüsusi Komitəsi təsis olundu.

AMADA 2021-ci ildə də təmiz idman dəyərlərinin, sağlam və ədalətli idman mühitinin qorunması üçün yerli və beynəlxalq səviyyədə fəaliyyətini davam etdirib, dopinqlə mübarizədə qətiyyət və əzm nümayiş etdirib.



*Şəfəq Hüseynli*

# Test Proqramı

TBP

30
İdman növü

38
İdman Kateqoriyası

Tədbirlər

12
Ümumi

QTQ

119
Daxil olmuş idmançı

31
Nümunə Toplanması Heyəti

## Ümumi test

**1499**

### Milli Test Proqramı

**1367**

**475**
Yarış müddətində test

**892**
Yarışdan kənar müddətdə test

### Beynəlxalq Test Sifarişləri

**132**

**89**
Yarış müddətində test

**43**
Yarışdan kənar müddətdə test

### İBP Proqramı

**140**
İBP Pasportu



- AMADA idman təqviminə və idman növlərinə bağlı risk amilləri, elmi ixtiralar, təhqiqat, sosial araşdırmalara əsaslanan test planını icra edir. Test planı Olimpiya, Qeyri Olimpiya, para-idman növləri və onları təmsil edən müxtəlif qrup idmançıları əhatə edir. Yarış və yarışdan kənar müddətdə İdmançılar öncədən xəbərdarlıq olmadan dopinq nəzarətindən keçirilir

- Məkan məlumatı yarışdan kənar müddətdə effektiv planlaşdırılma və öncədən xəbərdarlıq olmadan test keçirmək üçün əvəzsiz rol oynayır. AMADA-nın Qeydiyyata alınmış Test Qrupuna və Test Qrupuna daxil edilən İdmançılar məlumatların doğru, dəqiq və vaxtında təqdim edilmənin vacib olması, həmçinin məkan məlumatın düzgün təqdim edilməməsi və buraxılmış testlərin fəsadları barədə müvafiq təlim keçirlər. Onlar məlumatları ildə 4 dəfə, hər növbəti rübün əvvəlində ADAMS sisteminə daxil etməlidir və dəyişikliklər barədə dərhal AMADA-nı məlumatlandırmalıdırlar. İdmançılar bunu ADAMS sistemi vasitəsi ilə və ya bu məqsəd üçün yaradılmış e-mail ünvanına yazmaqla edə bilərlər. (QTQ və TQ).

- AMADA-nın Nümunə Toplama Heyəti 18 DNİ, 13 DNŞ və 4 QTİ-dan ibarətdir. Nümunə Toplama Heyəti ildə bir dəfə re-akkreditasiyadan keçir. Re-akkreditasiya 3 mərhələdən ibarətdir: nəzəri təlim, test imtahanı və yerində audit.

  AMADA Nümunə Toplama Heyətini daimi inkişaf etdirir və təkmilləşdirir. Bunun üçün aylıq təlimlər təşkil olunur. Təlimlərdə onlar antidopinq sahəsində yenilikləri oyrənir, risk ssenariləri üzrə məşğələlər edir və bir biri ilə təcrübə mübadiləsi aparırlar. Bütün təlimlər ÜADA Məcəlləsinə və Test etmə və Təhqiqatlar üzrə Beynəlxalq Standarta əsasən keçirilir. AMADA-nın bütün DNİ-ləri Azərbaycan, rus, türk, ingilis dillərində səlis danışır. Bundan əlavə, bəzi DNİ-lər həmçinin alman, ispan və koreya dillərini bilir. AMADA-nın bütün QTİ-ları tibb təhsilinə malikdirlər. Nümunə Toplama Heyəti)

- ÜADA Məcəlləsinə və Test etmə və Təhqiqatlar üzrə Beynəlxalq Standartlara əsasən AMADA uzunmüddətli strategiya yaratmışdır. İdmançılardan toplanmış nümunələr İdmançı Pasportunun İdarəetmə Bölümün təhqiqatları, laboratoriya tövsiyələri və ya digər mənbələrdən əldə edilən məlumatlara uyğun olaraq yenidən analiz olunma məqsədi ilə AMADA tərəfindən laboratoriyada uzunmüddətli saxlanılma üçün sifariş oluna bilər

- Beynəlxalq əməkdaşlıq çərçivəsində AMADA yurisdiksiyası altında olan İdmançıların dopinq nəzarəti testlərindən keçirilməsini digər Antidopinq Təşkilatlarına sifariş edir.

- Nümunələrin sayı və növləri, idman növləri, idmançı kateqoriyaları, toplanmış nümunə növləri və nümunə analizi növləri arasında müvafiq olaraq prioritetlər Test Bölüşdürmə Planında (TBP) öz əksini tapır. (Toplanmış nümunələr)

- AMADA beynəlxalq əməkdaşlıq çərçivəsində digər Antidopinq Təşkilatları, Beynəlxalq Federasiyalar, Beynəlxalq Test Agentliyi üçün test etmə sahəsində Nümunə Toplama üzrə Səlahiyyətli Qurum olaraq xidmət göstərir Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) 14 dopinq nəzarəti inspektoru Beynəlxalq Test Agentliyinin Beynəlxalq Dopinq Nəzarəti İnspektorları üçün Təlim-Sertifikat proqramını uğurla başa vurub. AMADA-nın Dopinq Nəzarəti İnspektorları Ümumdünya Antidopinq Agentliyinin uyğunluq standartlarına avab verən peşəkar mütəxəssis kimi beynəlxalq inspektor statusu alıblar (2023-cü ilin aprelin 23 -dək). Bu isə dopinq nəzarəti inspektorlarına beynəlxalq yarışlarda, o cümlədən dünya çempionatları, Olimpiya oyunları və digər böyük yarışlarda, habelə yarışdan kənar dopinq nəzarəti prosesinə cəlb olunma hüququnu verir.
  Beynəlxalq Test Agentliyi COVID-19 pandemiyası və onun gətirdiyi məhdudiyyətləri nəzərə alaraq təlimləri onlayn formatda keçirib. İştirakçılar proqram çərçivəsində ən qabaqcıl təcrübələri öyrənib, dopinq testləri üçün istifadə olunan ən son avadanlıq və üsullarla tanış olub, idmançılarla səmərəli ünsiyyət qurmaq və onlara vacib dəstəyi göstərməklə bağlı biliklərini təkmilləşdiriblər.
  Təlim-sertifikat proqramı çərçivəsində AMADA-nın Dopinq Nəzarəti İnspektorları onlayn kursları müvəffəqiyyətlə bitirib, yekun imtahanından yüksək ballarla keçiblər.
  Beynəlxalq Dopinq Nəzarəti İnspektorları üçün Təlim-Sertifikat proqramının əsas məqsədi dünyada dopinq nəzarəti keyfiyyətinin artırılması üçün səylərin birləşdirilməsi və qabaqcıl təcrübələri təhlil edərək ən yaxşı standartların müəyyənləşdirilməsidir. AMADA proqramın hazırlanmasında da aktiv iştirak edib, təcrübələrini və təkliflərini bölüşməklə layihəyə öz töhfəsini verib.
  AMADA-nın iki Dopinq Nəzarəti inspektoru Tokioda dopinq nəzarətinin həyata keçirilməsinə cəlb olunub. Onlar Olimpiya Oyunlarında dopinq nəzarətinin həyata keçirilməsi prosesində iştirak ediblər. Bunun üçün onlar “Tokio-2020”-nin təşkilat komitəsinin iki mərhələli (test və müsahibə) imtahanından keçiblər.
  Bundan əlavə, Dopinq Nəzarəti İnspektorları onlayn dopinq nəzarəti və kağızsız dopinq nəzarəti kurslarını tamamlayaraq sertifikat alıb.
  Qeyd edim ki, AMADA-nın Dopinq Nəzarəti İnspektorları bir çox yerli və beynəlxalq yarışlarda dopinq nəzarətinin həyata keçirilməsində iştirak ediblər və kifayət qədər təcrübəyə malikdir.

# Nümunələrin aylar üzrə bölünməsi

| | Aylar üzrə nümunələrin sayı | | % |
|---|---|---|---|
| 1. | Yanvar | 77 | 5,63 |
| 2. | Fevral | 128 | 9,36 |
| 3. | Mart | 129 | 9,44 |
| 4. | Aprel | 142 | 10,39 |
| 5. | May | 126 | 9,22 |
| 6. | İyun | 95 | 6,95 |
| 7. | İyul | 50 | 3,66 |
| 8. | Avqust | 81 | 5,93 |
| 9. | Sentyabr | 72 | 5,27 |
| 10. | Oktyabr | 109 | 7,97 |
| 11. | Noyabr | 88 | 6,44 |
| 12. | Dekabr | 270 | 19,75 |

# Nümunələrin qruplar üzrə bölünməsi

| Ümumi nümunələr sayından qruplar üzrə bölünmə | | |
|---|---|---|
| **Qrupların bölünməsi (kişi, qadın)** | **Say** | **Faiz** |
| Kişi idmançılar | 998 | 73.01 |
| Qadın idmançılar | 369 | 26.99 |
| **Qrupların bölünməsi (Azyaşlı idmançılar, məhdud imkanlı idmançılar)** | **Say** | **Faiz** |
| Azyaşlı İdmançılar | 362 | 26.48 |
| Məhdud imkanlı idmançılar | 84 | 6.14 |
| **Qrupların bölünməsi (beynəlxalq-səviyyəli idmançılar, milli səviyyəli idmançılar)** | **Say** | **Faiz** |
| Beynəlxalq səviyyəli İdmançılar | 414 | 30.29 |
| Milli səviyyəli İdmançılar | 953 | 69.71 |

# Test Bölüşdürmə Planı

| İdman/idman yarım növləri | | |
|---|---|---|
| 1. | TBP üzrə İdman növləri | 30 |
| 2. | TBP üzrə İdman yarım növləri | 38 |

| TBP-na daxil olan olimpiya, qeyri-olimpiya, paralimpiya İdman/idman yarım növləri | | |
|---|---|---|
| 1. | TBP-ya daxil olan Olimpiya İdman növləri | 22 |
| 2. | TBP-ya daxil olan qeyri Olimpiya İdman növləri | 2 |
| 3. | TBP-ya daxil olan paralimpiya İdman növləri | 6 |

# Qeydiyyata alınmış Test Qrupu

| Qeydiyyata alınmış Test Qrupu | | |
|---|---|---|
| 1. | İdmançılar | 119 |
| 2. | İdman yarım növləri | 30 |

| QTQ-ya daxil olan olimpiya, qeyri-olimpiya, paralimpiya İdman növləri üzrə İdmançılar | | |
|---|---|---|
| 1. | Olimpiya İdman növləri üzrə İdmançılarin sayı | 106 |
| 2. | Qeyri Olimpiya İdman növləri üzrə İdmançıların sayı | 2 |
| 3. | Paralimpiya idman növləri üzrə İdmançılar | 11 |

| QTQ-ya daxil olan kişi və qadın İdmançılar | | |
|---|---|---|
| 1. | Kişilər | 87 |
| 2. | Qadınlar | 32 |

| QTQ-ya daxil olan Beynəlxalq və Milli-səviyyəli İdmançılar | | |
|---|---|---|
| 1. | Beynəlxalq səviyyəli İdmançılar | 52 |
| 2. | Milli səviyyəli İdmançılar | 67 |

# Test Qrupu

| Test Qrupu | |
|---|---|
| 1. | İdmançılar |
| 2. | İdman yarım növləri |

| TQ-ya daxil olan olimpiya, qeyri-olimpiya, paralimpiya İdman növləri üzrə İdmançılar | |
|---|---|
| 1. | Olimpiya İdman növləri üzrə İdmançılarin sayı |
| 2. | Qeyri Olimpiya İdman növləri üzrə İdmançıların sayı |
| 3. | Paralimpiya idman növləri üzrə İdmançılar |

| TQ-ya daxil olan kişi və qadın İdmançılar | |
|---|---|
| 1. | Kişilər |
| 2. | Qadınlar |

| TQ-ya daxil olan Beynəlxalq və Milli-səviyyəli İdmançılar | |
|---|---|
| 1. | Beynəlxalq səviyyəli İdmançılar |
| 2. | Milli səviyyəli İdmançılar |

# Nümunələrin Respublika ərazisində bölünməsi

| Azərbaycanın bölgələrində toplanmış nümunələr | | |
|---|---|---|
| Şəhər/rayon/region | Rəqəmlə | Faizlə % |
| Bakı | 1075 | 78.64 |
| Balakən | 1 | 0.07 |
| Beyləqan | 12 | 0.88 |
| Gəncə | 3 | 0.22 |
| Qobustan | 2 | 0.15 |
| Göy-Göl | 34 | 2.49 |
| Göyçay | 1 | 0.07 |
| İsmayıllı | 18 | 1.32 |
| Qusar | 5 | 0.37 |
| Xaçmaz | 8 | 0.59 |
| Lənkaran | 23 | 1.68 |
| Mingəçevir | 15 | 1.10 |
| Naxçıvan | 3 | 0.22 |
| Şamaxı | 4 | 0.29 |
| Şəki | 12 | 0.88 |
| Zaqatala | 2 | 0.15 |
| Xırdalan | 12 | 0.88 |
| Sumqayıt | 76 | 5.56 |

| Digər ölkələrdə toplanmış nümünələr | | |
|---|---|---|
| Ölkə | Rəqəmlə | Faizlə % |
| Rusiya | 25 | 1.83 |
| Türkiyə | 8 | 0.59 |
| Belarus | 5 | 0.37 |
| İsveçrə | 1 | 0.07 |
| Macarıstan | 2 | 0.15 |
| Almaniya | 9 | 0.66 |
| Ukrayna | 5 | 0.37 |
| Keniya | 2 | 0.15 |
| İspaniya | 1 | 0.07 |
| Özbəkistan | 3 | 0.22 |

# Dogər ölkələrdə sifariş olunan idman növləri

- Atletika
- Badminton
- Boks
- Velosiped
- Voleybol
- Qılıncoynatma
- Həndbol
- Karate
- Para-üzgüçülük
- Para-atletika
- Fiqurlu konkisürmə
- Triatlon
- Güləş

| Nümunə Toplama Heyəti | | |
|---|---|---|
| 1. | DNİ | 18 |
| 2. | QTİ | 4 |
| 3. | DNŞ | 13 |

| Cinsi nisbət | | |
|---|---|---|
| 1. | Kişi | 17 |
| 2. | Qadın | 14 |

| Keçirilmiş tədbirlər | | |
|---|---|---|
| 1. | Nümunə Toplama Heyəti üçün aylıq təlimlər | 6 |
| 2. | Yeni DNŞ və DNİ-lər üçün təlimlər | 6 |

| Laboratoriyada uzunmüddətli saxlanılma üçün sifariş olunan nümunələrin sayı | | |
|---|---|---|
| 1. | Sidik nümunələri | 100 |
| 2. | Qan nümunələri | 38 |

# Digər ölkələrdə sifariş olunan idman növləri

| Milli çempionatlarda iştirak | | Tarix |
|---|---|---|
| 1. | Velosiped Şosse üzrə Bakı Kuboku | 01-02.06.2021 |
| 2. | Taekvondo üzrə Gənclər arasında Azərbaycan Çempionatı | 06-07.08.2021 |
| 3. | Velosiped Şosse üzrə Azərbaycan Çempionatı | 20-22.08.2021 |
| 4. | Poverliftinq üzrə Azərbaycan Çempionatı | 18.09.2021 |
| 5. | Cüdo üzrə Açıq Kubok | 16-17.10.2021 |
| 6. | Velosiped Trek Sprint üzrə Açıq Kubok | 22.10.2021 |
| 7. | Karate üzrə Yeniyetmələr və Gənclər arasında Azərbaycan Çempionatı, | 28-29.10.2021 |
| 8. | Üzgüçülük üzrə Azərbaycan Çempionatı | 26-27.11.2021 |
| 9. | Atıcılıq üzrə Bakı Birinciliyi | 27.11.2021 |
| 10. | Taekvondo üzrə Azərbaycan Çempionatı | 03-06.12.2021 |
| 11. | Cüdo üzrə Böyüklər arasında Azərbaycan Çempionatı | 07-09.12.2021 |
| 12. | Güləş üzrə Böyüklər arasında Azərbaycan Çempionatı | 07-09.12.2021 |
| 13. | Cüdo üzrə Yeniyetmələr arasında Azərbaycan Çempionatı | 10-12.12.2021 |
| 14. | Qılıncoynatma üzrə Gənclər arasında Respublika Çempionatı | 26-27.12.2021 |
| 15. | 12 futbol üzrə yarış | |

| Beynəlxalq çempionatlarda iştirak | | Tarix |
|---|---|---|
| 1. | RGI; RGG - FIG WORLD CUP 2021 | 08.05.2021 |
| 2. | AERO - 9th FIG Aerobic Gymnastics World Age Group Competitions | 22-23.05.2021 |
| 3. | IBSA JUDO Grand Prix Baku 202 | 25-26.05.2021 |
| 4. | AERO - 16th FIG Aerobic Gymnastics World Championships | 28-29.05.2021 |
| 5. | Baku Grand Slam 2021 | 05-07.11.2021 |
| 6. | DMT;TRA;TUM - 35th FIG Trampoline Gymnastics World Championships | 20-21.11.2021 |
| 7. | 28th FIG Trampoline Gymnastics World Age Group Competitions | 27.11.2021 |

| Beynəlxalq tədbirlərdə iştirak | |
|---|---|
| 1. | 1. ITA IDCO Training Program (14 DNİ) – Beynəlxalq Test Agentliyin |
| 2. | Tokio 2020 Summer Olympic Games (2 DNİ) – Tokio 2020 Yay Olimpiya Oyunları |
| 3. | WADA Webinar-Implementing Dried Blood Spot (DBS) testing |
| 4. | WADA Webinar-Anti-Doping Testing in 2021 |

# Beynəlxalq Test Sifarişləri

| Beynəlxalq sifarişlər çərçivəsində toplanmış nümunələr | |
|---|---|
| 1. Ümumi | 132 |
| 2. Yarış müddəti | 89 |
| 3. Yarışdan kənar müddət | 43 |
| 4. Ümumi İdmançıların sayı | 104 |

| İdman növləri üzrə beynəlxalq sifarişlər |
|---|
| 1. Üzgüçülük |
| 2. Boks |
| 3. Gimnastika |
| 4. Güləş |
| 5. Karate |
| 6. Taekvondo |
| 5. Qılıncoynatma |
| 6. Cüdo |
| 5. Ağır Atletika |
| 6. Velosiped |

| No | İdman | YM | YKM | Ümumi |
|---|---|---|---|---|
| 1. | Atletika-Tullanmalar | 6 | 9 | 15 |
| 2. | Atletika-Orta məsafə 800-1500 m | 7 | 4 | 11 |
| 3. | Atletika- Sprint 400m və ya daha az | 6 | 10 | 16 |
| 4. | Atletika-Atışlar | 3 | 6 | 9 |
| 5. | Atletika-Uzaq məsafə 3000m və daha çox | 4 | 4 | 8 |
| 6. | Atıcılıq | 6 | 13 | 19 |
| 7. | Ağır Atletika | 0 | 60 | 60 |
| 8. | Akademik avarçəkmə | 0 | 1 | 1 |
| 9. | Badminton | 0 | 13 | 13 |
| 10. | Basketbol | 0 | 13 | 13 |
| 11. | Boks | 0 | 86 | 86 |
| 12. | Voleybol | 0 | 15 | 15 |
| 13. | Velosiped-Şosse | 30 | 57 | 87 |
| 14. | Velosiped – Trek Sprint | 10 | 0 | 10 |
| 15. | Su idmanı-Üzmə uzun məsafə 800m və daha çox | 7 | 17 | 24 |
| 16. | Su idmanı - Üzmə orta məsafəsi 200-400m | 11 | 11 | 22 |
| 17. | Su idmanı-Sprint 200m və daha az | 0 | 2 | 2 |
| 18. | Qılıncoynatma | 14 | 25 | 39 |

| No | İdman | YM | YKM | Ümumi |
|---|---|---|---|---|
| 19. | Futbol | 48 | 66 | 114 |
| 20. | Gimnastika-Bədii | 0 | 15 | 15 |
| 21. | Gimnastika-İdman gimnastikası | 0 | 7 | 7 |
| 22. | Həndbol | 0 | 30 | 30 |
| 23. | Cüdo-Cüdo | 96 | 73 | 169 |
| 24. | Cüdo-Para cüdo | 0 | 27 | 27 |
| 25. | Karate | 40 | 62 | 102 |
| 26. | Kanoe/kayak | 0 | 4 | 4 |
| 27. | Kanoye / Kayak - Sprint 200m | 0 | 6 | 9 |
| 28. | Para-atletika | 0 | 29 | 29 |
| 29. | Para-üzgüçülük | 0 | 10 | 10 |
| 30. | Para-poverliftinq | 0 | 5 | 5 |
| 31. | Para-atıcılıq | 0 | 2 | 2 |
| 32. | Taekvondo | 114 | 63 | 177 |
| 33. | Para-taekvondo | 0 | 20 | 20 |
| 34. | Stolüstü tennis | 0 | 9 | 9 |
| 35. | Triatlon | 0 | 6 | 6 |
| 36. | Güləş | 68 | 105 | 9 |
| 37. | Poverliftinq | 5 | 0 | 5 |
| 38. | Fiqurlu konkisürmə | 0 | 4 | 4 |

# İBP (İdmançı Bioloji Passportu) statistikası

| İBP Nümunələrin sayı -140 | | |
|---|---|---|
| 1. | Yarış müddəti | 11 |
| 2. | Yarışdan kənar müddət | 129 |

| No | İdman növləri üzrə toplanmış İBP nümunələri | YM | YKM | Ümumi |
|---|---|---|---|---|
| 1. | Atletika-Orta məsafə 800-1500 m | 0 | 2 | 2 |
| 2. | Atletika-Uzaq məsafə 3000m və daha çox | 0 | 3 | 3 |
| 3. | Boks | 0 | 33 | 33 |
| 4. | Velosiped-Şosse | 0 | 34 | 34 |
| 5. | Su idmanı-Üzmə uzun məsafə 800m və daha çox | 2 | 12 | 14 |
| 6. | Su idmanı-Üzmə orta məsafə 200-400m | 3 | 7 | 10 |
| 7. | Su idmanı-Sprint 200m və daha az | 0 | 2 | 2 |
| 8. | Para-üzgüçülük | 0 | 8 | 8 |
| 9. | Triatlon | 0 | 4 | 4 |
| 10. | Güləş | 6 | 24 | 30 |

# ANTİDOPİNQ QAYDA POZUNTULARI

Ümumi qayda olaraq, idmançı dinləmə üçün hüququndan imtina edən zaman və ya AMADA-nın İşlərin İdarəedilməsi Komissiyası tərəfindən təklif edilən sanksiyaya razılığını verdiyi zaman AMADA qərarverici qurum hesab olunur. Əks halda, idmançı işi mübahisələndirirsə, bu zaman dinləmə və qərar verilməsi üçün iş İntizam Komitəsinə ötürülür (Apellyasiya Komitəsinə apellyasiya şikayəti vermək hüququ saxlanılmaqla). Beynəlxalq səviyyəli idmançıların işləri barədə qərarın qəbul edilməsi üçün İsveçrənin Lozanna şəhərində yerləşən İdman Arbitraj Məhkəməsinə (İAM) apellyasiya şikayəti verilə bilər.

## İşlərin İdarəedilməsi Komissiyası

İşlərin İdarəedilməsi Komissiyası mümkün antidopinq qayda pozuntusuna dair zəruri qərarların qəbul edilməsi üçün təsis olunub. Komissiya tətbiq edilən AMADA Antidopinq Qaydalarına uyğun olaraq, mümkün antidopinq pozuntuları ilə əlaqədar görülməli müvafiq tədbirləri müəyyən etmək səlahiyyətinə malikdir.

İşlərin İdarəedilməsi Komissiyası Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Qanununa, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, AMADA-nın Nizamnaməsi, tətbiq edilən Ümumdünya Antidopinq Məcəlləsi və AMADA Antidopinq Qaydaları, Əsasnaməsi və digər normativ-hüquqi aktlara uyğun fəaliyyət göstərir.

## Nəticələrin Emalı Prosesi

Nəticələrin emalı idmançının mümkün antidopinq qayda pozuntusu barədə bildirişin verilməsindən başlayaraq, iddia və birinci instansiya və ya apellyasiya üzrə dinləmə prosesinin sonu (apellyasiya şikayəti verildikdə) daxil olmaqla, məsələnin tam həlli arasında müddəti əhatə edən prosesdir.

Nəticələrin emalı prosesi AMADA-nın Hüquq şöbəsi tərəfindən həyata keçirilir və ədalət, bitərəflik və ağlabatan müddət prinsiplərinə əsaslanır. Antidopinq qayda pozuntusunun həlli mexanizmi Hüquq şöbəsi tərəfindən idarə edilən AMADA-nın İşlərin İdarəedilməsi Komissiyası, əməliyyat və təşkilati cəhətdən müstəqil olan birinci və apellyasiya instansiyaları (İntizam və Apellyasiya komitələrinin) tərəfindən həyata keçirilir.







***bir idmançı bir neçə antidopinq qayda pozuntusu törətdiyindən AQP sayı AQP növləri sayı ilə eyni olmaya bilər.**

## Maddələr sinfi

S1. Anabolik agentlər -**9**
S6. Stimullaşdırıcılar - **1**
M2. Kimyəvi və fiziki manipulyasiyalar – **1**

# İdman növləri üzrə AQP



# İCTİMAİYYƏTƏ AÇIQLAMA

2021-ci il üzrə 11 AQP barədə məlumat AMADA-nın rəsmi internet səhifəsində yerləşdirilib.

## Medalların geri qaytarılması

Antidopinq qayda pozuntusu törətmiş və barəsində sanksiya tətbiq edilməsi qərarı qüvvəyə minən bütün idmançıların dopinq nəzarətinin keçirildiyi zaman əldə etdiyi nəticələri ləğv edilməli və müvafiq olaraq medallar geri alınmalıdır. Bununla yanaşı, onların əvəzinə həmin nəticəyə avtomatik nail olmuş idmançıların yerləri bərpa edilməli və müvafiq medallar təqdim olunmalıdır.

Dopinq nəzarətinin əsas məqsədi idmanda ədalət prinsipinin təmin edilməsi, təmiz idmanın və idmançıların hüquqlarının qorunmasıdır. Hər hansı bir idmançının qadağan olunmuş maddə və ya üsullardan istifadə etməklə əldə etdiyi nəticələr idmanda ədalət və bərabər imkanlar prinsipinin, habelə yarışlarda iştirak edən digər idmançıların hüquqlarının pozulmasıdır. Bu cür hallarla ciddi mübarizə aparmaqla yanaşı, yarışlarda iştirak edən digər idmançıların hüquqlarının bərpası vacib məsələlərdən biridir. Bu, yarışlarda iştirak edən digər idmançıların karyerası, idman reytinqi və beynəlxalq yarışlarda iştirak imkanları baxımından əhəmiyyətlidir. Bu səbəbdən, qadağan olunmuş maddə və ya üsullardan istifadə edən idmançıların antidopinq qayda pozuntusu törətdikləri yarışlarda əldə edilən nəticələri ləğv olunmalı və rotasiya qaydasında sıralama yenidən tərtib edilməlidir. İdmançıların antidopinq qayda pozuntuları nəticəsində əldə etdikləri xalların və medalların rotasiya qaydasında ləğv olunması, geri qaytarılması və yenidən hesablanması üçün AMADA Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və respublikanın müvafiq idman federasiyaları ilə əməkdaşlıq edir.

## Hüquqi yardım

İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyada ittiham edilən və mümkün sanksiya ilə üzləşən şəxsə öz müdafiə xərclərini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman müvafiq hüquqi yardımın göstərilməsi haqqında müddəa mövcuddur. Antidopinq icraatının məqsədi cəzalandırmaq deyil, ədalətin bərqərar olunması və təmiz idman prinsiplərinin müdafiə edilməsidir.

Antidopinq sisteminin tələbləri ilə idmançıların müdafiə edilməsi zərurətinin tarazlaşdırılmasının yollarından biri idmançılara müvafiq hüquqi yardımın təmin olunmasıdır. Bu məqsədlə AMADA pulsuz hüquqi yardım proqramını həyata keçirir.

Proqram çərçivəsində antidopinq qayda pozuntusunu törətmiş və hüquqi yardıma ehtiyacı olan idmançılara AMADA ilə əməkdaşlıq edən hüquq şirkəti tərəfindən pulsuz hüquq xidmətləri göstərilir.

## Onlayn dinləmələr

2021-ci il ərzində COVID-19 pandemiyasının geniş yayılmasının qarşısınını alınması məqsədilə tətbiq edilmiş karantin rejiminin tətbiqi səbəbilə icraatı davam etdirilən işlərin komitələr tərəfindən baxılmasında gecikmənin olmaması və Ümumdünya Antidopinq Məcəlləsinin və standartlarının müəyyən etdiyi müddətlərin ötürülməməsi üçün il ərzində komitələr qarşısında dinləmələr Zoom və MS Teams platformaları üzərindən onlayn şəkildə keçirilib.

Bununla yanaşı, karantin rejiminin yumşaldılması fonunda idmançılara dinləmələrin onlayn və oflayn şəkildə keçirilməsi seçimi verilib və 3 iş üzrə dinləmə oflayn rejimdə AMADA-nın ofisində təşkil olunub.

# ARAŞDIRMA VƏ TƏHQİQATLAR

**Təhqiqat sayı 80**

1.Antidopinq qayda pozuntusu 11

2. Məkan məlumatı xətası 69

**Buraxılmış test 53**

**Məkan Məlumatının təqdim edilməməsi 16**

**Dopinq nəzarəti protokolu üzrə yoxlama 289**

**İfşa etmə məlumatların sayı 14**

**Hədəfli Testlər 25**



## Məlumat Kanalları

**12,5%** E-mail

**62,5%** Vebsayt vasitəsi ilə anonimlər

**25%** Sosial Şəbəkələr

# ARAŞDIRMA VƏ TƏHQİQATLAR

İdmanda dopinqlə mübarizə çərçivəsində AMADA təhqiqatların aparılması və həmçinin müxtəlif məlumat toplanması üsullarından istifadə edir. Məlumat toplanması prosesi və təhqiqatların aparılması təmiz idmanı təşviq etmək üçün mühüm rol oynayır. Bu istiqamətdə AMADA Ümumdünya Antidopinq Məcəlləsi və Test etmə və təhqiqat üzrə Beynəlxalq Standarta uyğun olaraq fəaliyyət göstərir Təmiz idmanı və sağlam rəqabəti təbliğ etmək məqsədi ilə AMADA tərəfindən qadağan edilmiş maddə və üsullardan istifadə edən idmançıları aşkarlanması üçün  bir neçə məxfi məlumat paylaşım kanalları yaradılıb. AMADA-nın internet səhifəsindəki anonim məlumat paylaşım platforması, həmçinin sosial şəbəkələrdəki hesabları, elektron ünvanı  və telefon əlaqəsi bu məlumat kanallarına daxildir. Əldə olunan məlumatlar əsasında hədəfli testlər keçirilir və müvafiq təhqiqatların aparılması prossesi başlayır. Ətraflı araşdırılma zərurəti yarandıqda antidopinq qayda pozuntusunu müəyyən etmək məqdsədilə  hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edilir. Təhqiqat zamanı barəsində araşdırma aparılan şəxslərin sosial media hesabatların izlənməsi və həmçinin onların əlaqələri üzrə vizual xəritənin avtomatlaşdırılmış qaydada yaradılması üçün Social Net Shadow Dragon və IBM I2 Analyst Notebook platformalarından istifadə olunur.

# ARAŞDIRMA VƏ TƏHQİQATLAR

## Təhqiqat aparılan idman növləri:

- Cüdo
- Boks
- Basketbol
- Futbol
- Ağır Atletika
- Sambo
- Karate
- Həndbol
- Yüngül Atletika
- Güləş
- Taekvondo
- Velosiped idmanı
- Stolüstü Tennis
- Qılıncoynatma
- Üzgüçülük

# SEMİNAR

Dopinqlə mübarizənin gücləndirilməsi məqsədi ilə dekabrın 17-də Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Dopinq vasitələrinin Azərbaycan Respublikası gömrük sərhədindən qanunsuz keçirilməsi hallarının qarşısının alınması" mövzusunda təlim keçirilib. Təlim zamanı AMADA tərəfindən antidopinq sahəsində ümumi məlumat, qadağan edilmiş maddələr, beynəlxalq təcrübədən misallar və digər mövzulara toxunulub, və həmçinin iştirakçıların sualları cavablandırılıb.

- 25.05.2021-ci il tarixində - AMADA  və Avstraliyanın Milli Antidopinq Agentliyi antidopinq sahəsində təhqiqat və araşdırmalar mövzusunda onlayn görüş

- 17.12.2021-ci il tarixində - Dövlət Gömrük Komitəsi üçün "Dopinq vasitələrinin Azərbaycan Respublikası Gömrük sərhədindən qanunsuz keçirilməsi hallarının qarşısının alınması" movzusunda təlim






# BEYNƏLXALQ FƏALİYYƏT

21 BEYNƏLXALQ GÖRÜŞ

## Beynəlxalq əlaqələr

ÜADA

YUNESKO

Avropa Şurası

Beynəlxalq Test Agentliyi

İNADO

MADT

Beynəlxalq Federasiyalar

PWC

Berlinger Special

# Beynəlxalq fəaliyyət

AMADA təmiz idmanın təşviqi məqsədilə beynəlxalq arenada fəal iştirak edir. Agentlik milli antidopinq təşkilatı kimi hər zaman milli səviyyədə fəaliyyətini təkmilləşdirmək və beynəlxalq səviyyədə dopinqlə mübarizəyə töhfə vermək əzmindədir. AMADA inanır ki, qarşılıqlı faydalı əməkdaşlıq həm ölkə daxilində, həm də qlobal arenada faydalıdır.

AMADA idmançıların hüquqlarının qorunmasına xüsusi diqqət göstərir. Agentlik qlobal antidopinq cəmiyyətinin tərəfdaşı kimi beynəlxalq antidopinq fəaliyyətinin inkişaf etməsinin gender bərabərliyi, ifşaedənlərin müdafiəsi, insan hüquqları, idmançıların ədalət mühakiməsinə maneəsiz çıxışı, milli antidopinq təşkilatlarının inkişafı və ümumdünya təhsil istiqamətlərinə öz töhfəsini verib. Təmiz idmanın və antidopinq fəaliyyətinin inkişafına həssas münasibətinə görə AMADA müxtəlif beynəlxalq işçi qruplara dəvət alıb. Bununla belə, AMADA-nın heyəti ekspert qismində beynəlxalq təşkilatların müxtəlif xüsusi və işçi qruplarının, habelə digər komitələrin üzvü seçiliblər.

# Ölkə təmsilçiliyi

## AMADA Azərbaycanın nümayəndə heyəti kimi (təmsilçisi)

- Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupu (T-DO)
- Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)
- YUNESKO-nun Tərəflərin Konfransı

# Ümumdünya Antidopinq Agentliyi (ÜADA

## ÜADA-nın Təhsil üzrə Daimi Komitəsinin üzvü (AMADA-nın direktoru)

### Vəzifələri:

ÜADA rəhbərliyinə qısamüddətli təhsil strategiyaları və fəaliyyətinə, ÜADA-nın təhsil proqramlarına uzunmüddətli yanaşmalara, o cümlədən ÜADA tərəfindən maliyyələşdirilən sosial elmi tədqiqatların seçim prosesinə dair ekspert məsləhəti və tövsiyələr vermək

## Milli Antidopinq Təşkilatlarının İnkişafı ÜADA-nın Milli Antidopinq Təşkilatları üzrə Ekspert Məsləhətçi Qrupunun üzvü (AMADA-nın direktoru)

### Vəzifələri:

ÜADA rəhbərliyinə milli antidopinq təşkilatlarının effektiv dopinq nəzarəti strategiyaları və planlarının təşviqi üzrə proqramları və fəaliyyətləri, onların qısa və uzunmüddətli effektivliyinə dair ekspert məsləhəti və tövsiyələr vermək

## "Pekin 2022" Qış Paralimpiya Oyunlarında Antidopinq Proqramı üzrə ÜADA-nın Müstəqil Müşahidəçi Qrupunun rəhbəri (AMADA-nın direktoru

### Vəzifələri:

Qış Paralimpiya Oyunlarında dopinq nəzarəti sisteminin bütövlüyünün və beynəlxalq standartlara uyğunluğunun qorunmasına töhfə vermək.

# Avropa Şurası

## Ədalət mühakiməsinə çıxış

## Avropa Şurasının "İdmançıların ədalət mühakiməsinə maneəsiz çıxışının təmin edilməsi" üzrə xüsusi ekspertlər qrupunun sədr müavini (T-DO HR) (AMADA-nın direktoru)

### Vəzifələri:

Sədrlə birlikdə antidopinq icraatında ədalətli mühakimə prosedurunun ümumi prinsiplərinə dair layihə sənədinin hazırlanması üzrə qrupun işinin əlaqələndirilməsi

# Beynəlxalq fəaliyyət

Koordinasiya Qrupu

Avropa Şurası Monitorinq Qrupunun Koordinasiya Qrupunun üzvü (AMADA-nın direktoru)

**Vəzifələri:**

Avropa Şurasının Monitorinq Qrupunun Antidopinq Konvensiyası üzrə məsələlərinin əlaqələndirilməsi.

Gender Bərabərliyi

CAHAMA-nın gender bərabərliyi üzrə məruzəçisi (AMADA-nın direktoru)

**Vəzifələri:**

CAHAMA hökumətlərarası qurumunun bütün siyasətləri, prosedurları, qərarları və mandatlarında gender bərabərliyini təşviq etmək və dəstəkləmək.

Antidopinqdə Gender Bərabərliyi üzrə Xüsusi Komitə (AMADA-nın direktoru

**Vəzifələri:**

AMADA direktorunun müəllifi olduğu "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsini daha ətraflı formada həyata keçirmək və onun icrasını dəstəkləmək

# İfşaedənlərin müdafiəsi

Antidopinq Konvensiyasının Monitorinq Qrupunun İfşaedənlərin Müdafiəsi üzrə xüsusi ekspertlər qrupunun üzvü (T-DO WbP) (AMADA-nın hüquq şöbəsinin müdiri)

**Vəzifələri:**

Ekspert məsləhəti vermək, antidopinq təşkilatları və üzv dövlətlərə ifşaedənlərin müdafiəsi üzrə təlimata dair layihə sənədinin hazırlanmasında iştirak etmək.

# Beynəlxalq görüşlər

**9 fevral** - YUNESKO-nun İdmanda dopinqə qarşı Beynəlxalq Konvensiyası çərçivəsində Milli Uyğunluq Platforması

**16 fevral** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (T-Do) İnformatorların müdafiəsinin təminatı üzrə Ad Hoc Qrupu

**16 mart** - YUNESKO-nun İdmanda dopinqə qarşı Beynəlxalq Konvensiyası üzrə Tərəflərin Konfransı

**27 aprel** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (T-Do) İnformatorların müdafiəsinin təminatı üzrə Ad Hoc Qrupu

**26 may** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (T-Do) Koordinasiya Qrupu

**1 iyun** – Avropa Şurası çərçivəsində İnsan Hüquqları üzrə Forum

**10-11 iyun** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupu

**17 iyun** - MDB ölkələrinin idmanda dopinqə qarşı mübarizə üzrə İşçi Qrupu

**13 iyul** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (T-Do) Koordinasiya Qrupu

**24 avqust** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (T-Do) Niderland Krallığı üzrə Qiymətləndirmə Qrupu

**26 avqust** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (T-Do) İnformatorların müdafiəsinin təminatı üzrə Ad Hoc Qrupu

**26 avqust** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (T-Do) Koordinasiya Qrupu

**06-07 sentyabr** - Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)

**1 oktyabr** - Avropa Şurası Antidopinq Konvensiyası üzrə İnsan Hüquqları Ad Hoc Qrupu

**6 oktyabr** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupunun (T-Do) İnformatorların müdafiəsinin təminatı üzrə Ad Hoc Qrupu

**19 oktyabr** - ÜADA-nın Milli Antidopinq Təşkilatları üzrə Ekspert Məsləhətçi Qrupu

**26-28 oktyabr** - YUNESKO-nun İdmanda dopinqə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiyası üzrə Tərəflərin Konfransı

**3-4 noyabr** - ÜADA-nın Milli Antidopinq Təşkilatları üzrə Ekspert Məsləhətçi Qrupu

**4 noyabr** - Avropa Şurası Antidopinq Konvensiyası üzrə İnsan Hüquqları Ad Hoc Qrupu

**16-17 noyabr** - Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)

**13-14 dekabr** - Avropa Şurası Antidopinq Konvensiyasının Monitorinq Qrupu

# Beynəlxalq layihələr

## "Antidopinqdə gender bərabərliyinin gücləndirilməsi"

Layihəyə Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsinin gender bərabərliyi məruzəçisi qismində AMADA-nın direktoru rəhbərlik edir. Layihənin məqsədi Ümumdünya Antidopinq Agentliyi, Avropa Şurasının müxtəlif dövlətlərarası qurumları, eləcə də milli və beynəlxalq antidopinq təşkilatları arasında gender balansı haqqında məlumatın və daxili qaydaların təhlil edilməsi, Avropa Şurasının strateji prioritetlərindən hesab edilən gender bərabərliyinin antidopinq sahəsində gücləndirilməsidir. Layihəyə 10-11 may 2021-ci il tarixindən start verilib. AMADA-nın direktoru, Avropa Şurasının gender bərabərliyi üzrə məruzəçisi Avropa Şurasında yaradılan Antidopinq sahəsində Gender Bərabərliyi üzrə Xüsusi Komitəyə sədrlik edir. Xüsusi Komitə layihəni daha əhatəli formada həyata keçirmək və onun icrasını dəstəkləmək məqsədilə yaradılıb. Komitə "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsinin icrası çərçivəsində antidopinq təşkilatlarında və antidopinq üzrə dövlətlərarası qurumlarda gender balansı haqqında məlumatın toplanmasını həyata keçirəcək, təsis sənədlərini və daxili qaydaları təhlil edəcək, aşkarlanan uyğunsuzluqların aradan qaldırılması, habelə gender bərabərliyinin gücləndirilməsi üçün tövsiyələr hazırlayacaq. Komitə layihənin effektiv şəkildə reallaşdırılması üçün Avropa Şurasının aidiyyəti digər komitələri, qrupları və üzv dövlətləri ilə əməkdaşlıq edəcək. Komitənin fəaliyyətinin və "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsinin icrasının yekunlarına dair hesabat və tövsiyələr hazırlanaraq Avropa Şurası Nazirlər Komitəsinə təqdim ediləcək. Layihə CAHAMA-nın 2022-2025-ci illər üzrə əsasnaməsinə daxil edilib.

## "Antidopinq icraatlarının təhlili"

Layihənin məqsədi antidopinq icraatları zamanı idmançıların hüquqlarının qorunmasının və onların ədalətli dinləmə hüququndan istifadənin təmin edilməsinin araşdırılması, dünyada idmançı hüquqlarının təmin olunması üzrə antidopinq icraatlarının boşluqları və uyğunsuzluqlarını təhlil edərək Avropa Şurasının bu sahədə təsdiqlədiyi ədalətli dinləmə üzrə tövsiyəvi sənədin tətbiqinin monitorinqidir. 17-18 dekabr 2020-ci il tarixində start verilən layihəyə iki beynəlxalq ekspert cəlb edilib. Analitik məlumatların təhlilinin aparılması üçün metodların müəyyən edilməsi üzərində işlər yekunlaşdırılıb və layihə çərçivəsində toplanmış məlumat əsasında hesabat hazırlanaraq layihə rəhbərinə (AMADA-nın direktoru) təqdim edilib. 4 noyabr 2021-ci il tarixində Avropa Şurası Antidopinq Konvensiyası üzrə İnsan Hüquqları Ad Hoc Qrupu çərçivəsində görüş keçirilib və yekun hesabat müzakirə olunub.

# Beynəlxalq əməkdaşlıq

## Yerli əməkdaşlıq

- Gənclər və İdman Nazirliyi
- Hüquq Mühafizə Orqanları
- Milli Olimpiya və Paralimpiya komitələri
- Milli Federasiyalar

## Beynəlxalq əlaqələr

| | | |
|---|---|---|
| ÜADA | YUNESKO | Avropa Şurası |
| Beynəlxalq Test Agentliyi | iNADO | Milli Antidopinq Təşkilatları |
| Beynəlxalq Federasiyalar | PWC | Berlinger Special |

## Ölkədaxili əlaqələndirmə

Əməkdaşlıq və koordinasiyalı yanaşmanı rəhbər tutaraq AMADA maraqlı tərəflərin təcrübəsini tanıyır və qəbul edir. Öz növbəsində həmin tərəflər dopinq təhlükəsinin qarşısını almaq üçün vahid mərkəzləşdirilmiş təşkilatla işləməkdən faydalanır.
AMADA dopinq təhlükəsinin bütün elementləri ilə mütəşəkkil mübarizə aparır. Bura hüquq -mühafizə orqanları, gömrük və sərhəd xidməti qurumları, tənzimləyici orqanlar, akademik təşkilatlar, idman və səhiyyə sektoru daxildir.

AMADA antidopinq cəmiyyətinin kollektiv bacarıqlarını inkişaf etdirmək üçün Ümumdünya Antidopinq Agentliyi və digər beynəlxalq antidopinq təşkilatları ilə əlaqələri möhkəmləndirməyə davam edəcək ki, Azərbaycan idmançıları dünyada bütün olduqları yerlərdə bərabər şəraitdə mübarizə apara bilsinlər.

## Gənclər və İdman Nazirliyi

AMADA Azərbaycan antidopinq ictimaiyyətinin əsas tərəflərindən biri və ölkədə bütün idman fəaliyyətini idarə edən qurum olan Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq edir.

## Milli Olimpiya və Paralimpiya komitələri

Milli Olimpiya və Paralimpiya komitələri ilə bərabər tərəfdaşlıq ruhunda əməkdaşlıq idmanda dopinqlə mübarizə üçün zəruridir.

## Hüquq-Mühafizə Orqanları

Qanuna əsasən, AMADA hüquq-mühafizə orqanları ilə antidopinq qayda pozuntuları və dopinq nəzarəti üzrə zəruri məlumat mübadiləsini həyata keçirir. Əlavə olaraq, dopinq maddələri, xüsusilə anabolik steroidlər əksər hallarda qanunsuz idxal edilir və "qara bazar"da satılır. Bununla əlaqədar olaraq belə qanunsuz fəaliyyətin qarşısının alınması üçün səyləri birləşdirmək məqsədilə AMADA Daxili İşlər Nazirliyi, INTERPOL-un Milli Mərkəzi Bürosu, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıq edir.

## Milli Federasiyalar

Respublika idman federasiyaları öz yurisdiksiyaları çərçivəsində hər bir idman növünü idarə edən təşkilatlardır. Dopinqlə müştərək mübarizə aparmaq, o cümlədən təmiz idmanı təşviq etmək, idmançıları və onların köməkçi heyətlərini məlumatlandırmaq məqsədilə AMADA bütün milli federasiyalarla əməkdaşlıq edir, onların Məcəllə və beynəlxalq standartlara riayət etməsinin monitorinqini aparır.

## Narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə

Azərbaycan Milli Antidopinq Agentliyi ölkə ərazisində antidopinq siyasətini aparır və beynəlxalq standarlara uyğun olaraq antidopinq proqramını həyata keçirir. Antidopinq proqramına müxtəlif idman növləri və yaş qruplarından ibarət olan idmançılar arasında maarifləndirmə işlərinin aparılması daxildir.
Bir sıra narkotik vasitələr və psixotrop maddələrin qadağan edilmiş siyahıda olmasını nəzərə alaraq, AMADA bu sahədə idmançılar üçün mühazirələr və seminarlar keçirir, onlara qadağan edilmiş maddələrin, o cümlədən narkotik vasitə və psixotrop maddələrin istifadəsinin yaratdığı fəsadları vurğulayır.

Azərbaycan Milli Antidopinq Agentliyinin tədbirlərinin əhatə dairəsi idmançılar və köməkçi heyət, habelə idman məktəblərində təhsil alan gənclərdir. Tədbirlər respublika idman federasiyalarında, idman klublarında, habelə digər idman subyektləri və təhsil müəssisələrində keçirilir.
Azərbaycan Milli Antidopinq Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən yuxarıda qeyd olunan Dövlət Proqramına narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vasitələrdən istifadə etməklə təbliğat işinin təşkili, bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi, müvafiq qurumlarla əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi məqsədilə daxil edilib.
Dövlət Proqramına qoşulmaqla, AMADA idmançılar və köməkçi heyət, idman və digər məktəblərdə gənclər arasında narkotiklərin zərəri və təsirləri, antinarkomaniya barədə maarifləndirmə işlərini, mühazirələrin və seminarların keçirilməsi, ictimaiyyətin məlumatlandırılması tədbirlərini həyata keçirir.
İl ərzində antinarkotik təbliğatı və maarifləndirmə məqsədilə idman federasiyaları, idmançılar və onların köməkçi heyəti üçün 8 vebinar, 25 seminar və 1 tədbir keçirilib. Bundan əlavə, təşkil edilən çoxsaylı digər antidopinq maarifləndirmə tədbirlərində narkotiklərlə mübarizə məsələsinə xüsusi diqqət yetirilib.
Dekabrın 20-də Azərbaycan Milli Antidopinq Agentliyi idmanda narkotik vasitələrlə mübarizəyə həsr olunmuş "Parlaq gələcək üçün narkotikə yox" mövzusunda tədbir keçirib.
Tədbirdə AMADA ilə yanaşı, Gənclər və İdman Nazirliyinin, Daxili İşlər Nazirliyinin Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının, Baş Narkotiklərlə Mübarizə İdarəsinin və Dövlət Gömrük Komitəsinin nümayəndələri də iştirak ediblər.

İdmançılar arasında narkotik və asılılıq yaradan maddələrin istifadəsinin yayılma miqyasını müəyyən edərək bununla mübarizə aparılması məqsədilə idman subyektləri üçün yeni çağırışlara cavab verən maarifləndirmə tədbirlərinin istiqamətinin müəyyən edilməsi üçün "İdmançıların asılılıq yaradan maddələrə münasibətinə dair" sorğu keçirilib. Sorğuda 608 nəfər idmançı iştirak edib. Sorğu əsasında təhlil aparılaraq analitik hesabat hazırlanıb və idman ictimaiyyətinə təqdim olunub.
AMADA antinarkotik fəaliyyətini Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası ilə əlaqəli şəkildə qurub.

2021-ci ilin aprel ayının 23-də Azərbaycan Milli Antidopinq Agentliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun rəhbərlikləri arasında görüş keçirilib. AMADA-nın direktoru Şəfəq Hüseynli, Dövlət Komissiyasının İşçi Qrupunun rəhbərli Fəqan Şahverdiyev və digər əməkdaşların iştirak etdiyi görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" ndan irəli gələn məsələlər müzakirə edilib.

İyul ayında isə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu ilə Azərbaycan Milli Antidopinq Agentliyi arasında Tədbirlər Planı imzalanıb.
Tədbirlər Planı çərçivəsində AMADA-nın əməkdaşlarına narkomanlığa qarşı mübarizə üzrə təlimlərin keçirilməsi, yeniyetmə və gənc idmançılar arasında məlumatlandırma işinin aparılması, mövcud şəraitə uyğun olaraq sosial maarifləndirmə işlərinin təşkili, müxtəlif maarifləndirici materialların hazırlanması və digər profilaktik tədbirlərin keçirilməsi təmin olunub.

Bundan əlavə, Dövlət Komissiyasının təşkil etdiyi tədbirlərdə AMADA-nın əməkdaşları fəal iştirak ediblər. Belə ki, Komissiya tərəfindən müxtəlif universitet, kollec, orta məktəb və Gənclər evlərində keçirilmiş antinarkotik təbliğat tədbirlərində AMADA əməkdaşları idmanda narkotik vasitələrə həsr olunmuş xüsusi təqdimatlar və çıxışlar ediblər.

# Beynəlxalq münasibətlər

AMADA təmiz idmanın təşviqi məqsədilə beynəlxalq arenada fəal iştirak edir. Agentlik milli antidopinq təşkilatı kimi hər zaman milli səviyyədə fəaliyyətini təkmilləşdirmək və beynəlxalq səviyyədə dopinqlə mübarizəyə töhfə vermək əzmindədir. AMADA inanır ki, qarşılıqlı faydalı əməkdaşlıq həm ölkə daxilində, həm də qlobal arenada faydalıdır.

# Ümumdünya Antidoping Agentliyi

Ümumdünya Antidopinq Agentliyi (ÜADA) idman hərəkatı və dövlətlər tərəfindən təsis edilərək maliyyələşdirilən beynəlxalq müstəqil qurumdur. Əsas fəaliyyət istiqamətlərini elmi tədqiqat, təhsil, antidopinq fəaliyyətinin inkişafı, eləcə də bütün idman növləri və bütün ölkələrdə antidopinq siyasətlərini birləşdirən sənəd olan Ümumdünya Antidopinq Məcəlləsinin monitorinqi təşkil edir. AMADA öz gündəlik fəaliyyətində ÜADA ilə sıx əməkdaşlıq edir və ÜADA-nın tədbirlərində, xüsusi işçi qruplarında iştirak edir. Bu AMADA-ya ölkənin Məcəllə və Beynəlxalq Standartlara riayət statusunu dəstəkləməyə və eyni zamanda, qlobal səviyyədə dopinqlə mübarizəyə töhfə verməyə kömək edir.

# YUNESKO

Azərbaycan 23 iyul 2007-ci il tarixində YUNESKO-nun İdmanda Dopinqə qarşı Beynəlxalq Konvensiyasına tərəf olmuşdur. Konvensiyanın məqsədi beynəlxalq hüququn dopinqlə mübarizəyə tətbiq edilməsidir. Konvensiya Ümumdünya Antidopinq Məcəlləsini tanıyır, onun effektiv tətbiqini, həmçinin dövlətlərin qlobal şəkildə dopinq probleminin həlli üçün istifadə edə biləcəkləri hüquqi çərçivəni təmin edir. YUNESKO-nun uyğunluq monitorinqi qaydalarına əsasən, AMADA, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Milli Olimpiya Komitəsindən ibarət Milli Uyğunluq Platformasını yaradılıb. AMADA ölkənin uyğunluğunun əlaqələndirilməsi üzrə Milli Əlaqələndirici təyin edilib.

# Avropa Şurası

Avropa Şurasının Antidopinq Konvensiyası 1 mart 1990-cı ildə qüvvəyə minib. Konvensiya antidopinq qanunvericiliyinin əlaqələndirilməsi məqsədilə məcburi qaydaları müəyyən edir. Azərbaycan Konvensiya və onun Əlavə Protokolunu müvafiq olaraq 4 noyabr 2003-cü ildə və 11 fevral 2004-cü ildə ratifikasiya edib və bu sənədlər 2004-cü ildə qüvvəyə minib. AMADA Avropa Şurasının Monitorinq Qrupu (T-DO) və Ümumdünya Antidopinq Agentliyi üzrə Avropa Şurasının Xüsusi Avropa Komitəsinin (CAHAMA) iclas və fəaliyyətlərində, o cümlədən müxtəlif işçi qruplarında iştirak edərək onlarla sıx tərəfdaşlıq edir.

# Beynəlxalq Test Agentliyi (BTA)

12 iyul 2019-cu il tarixində AMADA və BTA arasında əməkdaşlıq müqaviləsi imzalanıb. AMADA-nın BTA ilə tərəfdaşlığı test keçirmə, araşdırma, idmançıların bioloji pasportları sahələrində məlumat və təcrübə mübadiləsi, eləcə də digər qarşılıqlı maraq təşkil edən sahələrdə əməkdaşlığı əhatə edir. Müqavilə, həmçinin AMADA-nın, BTA-nın xahişi ilə BTA adından Nümunə Toplanması üçün Səlahiyyətli Qurum kimi çıxış etməsini nəzərdə turur. Sözügedən müqavilənin imzalanması qabaqcıl təcrübədən faydalanmaq məqsədilə beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi və daha yüksək nəticələrin əldə edilməsi üçün milli və beynəlxalq antidopinq səylərinin koordinasiyası baxımından əhəmiyyətlidir.

# Milli Antidopinq Təşkilatları İnstitutu

AMADA Milli Antidopinq Təşkilatları İnstitutunun üzvüdür. İnstitut dünyanın 100-dən çox milli antidopinq təşkilatını əhatə edir. İnstitut çərçivəsində AMADA antidopinq sahəsində digər təşkilatlarla məlumat mübadiləsi aparır və dopinqlə mübarizə istiqamətində müxtəlif təşəbbüs və layihələrdə iştirak edir.

## Milli Antidopinq Təşkilatları (MADT) və Nümunə Toplanması üçün Səlahiyyətli Qurumlar (NTSQ)

AMADA test keçirilməsini daha effektiv planlaşdırma və daha yaxşı məlumat mübadiləsi məqsədilə digər milli antidopinq təşkilatları və özəl nümunə toplama üçün səlahiyyəti olan qurumlarla sıx əməkdaşlıq edir. AMADA İsveçrə, Keniya, Belarus, Özbəkistan, Rusiya, Avstraliya Milli Antidopinq Təşkilatları ilə əməkdaşlıq müqavilələri imzalamış, həmçinin Almaniyada yerləşən beynəlxalq nümunə toplama üçün səlahiyyətli qurum olan "PWC" şirkəti, həmçinin Beynəlxalq Test Agentliyi ilə daima olaraq əməkdaşlıq edir.

# Azərbaycan Antidopinq
## xronoloji qrafiki

### 2003

**04 Noyabr**

Avropa Şurası Antidopinq Konvensiyasının ratifikasiyası (təsdiqlənməsi)

### 2004

**11 Fevral**

Avropa Şurası Antidopinq Konvensiyasının Əlavə Protokolunun ratifikasiyası (təsdiqlənməsi)

### 2007

**23 İyul**

Birləşmiş Millətlər Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyasına qoşulma

### 2016

**29 Noyabr**

"İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanununun tətbiqi

**23 Dekabr**

Qanuna əsasən Azərbaycan Milli Antidopinq Agentliyi təsis edildi

## 2017

### 04 Dekabr

Ukrayna Milli Antidopinq Mərkəzi
ilə Əməkdaşlıq Sazişi

UEFA ilə əməkdaşlıq sazişi

### 30 Noyabr

Belarusiya Milli Antidopinq Agentliyi
ilə Əməkdaşlıq Sazişi

### 21 Noyabr

Rusiya Antidopinq Agentliyi
ilə Əməkdaşlıq Sazişi

### 22 Fevral

Azərbaycan Milli Antidopinq
Agentliyi Ümumdünya Antidopinq
Məcəlləsini imzalamışdır

### 20 Fevral

Azərbaycanda antidopinq sisteminin
inkişafı və gücləndirilməsi üzrə
Ümumdünya Antidopinq Agentliyi, Polşa və Azərbaycan
arasında əməkdaşlığa başlanılmışdır

### 10 Fevral

Azərbaycan Milli Antidopinq
Agentliyi Milli Antidopinq
Təşkilatları İnstitutunun
üzvü oldu

## 2019

### 12 İyul

Beynəlxalq Test Agentliyi
ilə Əməkdaşlıq Sazişi

### 26 İyun

Bolqarıstanın Antidopinq Mərkəzi
ilə Əməkdaşlıq Sazişi

### 03 İyun

Moldova Milli Antidopinq Təşkilatı
ilə Əməkdaşlıq Sazişi

## 2018

### 06 Fevral

Azərbaycanda Avropa Şurasının
Antidopinq Konvensiyasının Monitorinq
Qrupunun monitorinq səfəri keçirilib

### 09 Mart

Türkiyə Antidopinq Komissiyası ilə
Əməkdaşlıq Sazişi

### 12 İyul

Tərəflər arasında məlumat mübadiləsi ilə bağlı "İdmanda
dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı
mübarizə haqqında" Azərbaycan Respublikasının
Qanununda dəyişikliklərin həyata keçirilməsi

### 14-15 Noyabr

Azərbaycan Ümumdünya Antidopinq Agentliyinin
Bakıda İcraiyyə Komitəsinin və Təsisçilər Şurasının
iclaslarına ev sahibliyi etdi

## 2021

### 01 mart

Antidopinq xidmətlərinin göstərilməsi üzrə Saziş
– Rusiya Antidopinq Agentliyi

### 15 mart

Antidopinq xidmətlərinin göstərilməsi üzrə Saziş
– Özbəkistan Antidopinq Agentliyi

### 16 aprel

Əməkdaşlıq Sazişi – Sport Integrity Australia

### 02 may

Antidopinq xidmətlərinin göstərilməsi üzrə Saziş
– Belarus Antidopinq Agentliyi

### 10-11 may

"Antidopinqdə gender bərabərliyinin gücləndirilməsi" layihəsinin işə salınması

### 22 sentyabr

Antidopinq xidmətlərinin göstərilməsi üzrə Saziş
– İsveçrə Antidopinq Agentliyi

### 27 sentyabr

Antidopinq xidmətlərinin göstərilməsi üzrə Saziş – PWC

### 19 oktyabr

Antidopinq xidmətlərinin göstərilməsi üzrə Saziş – Keniya Antidopinq Agentliyi

### 20 dekabr

Əməkdaşlıq və xidmətlərin göstərilməsi üzrə Saziş - Beynəlxalq Test Agentliyi

## 2020

### 6 iyul

Əməkdaşlıq Sazişi – Beynəlxalq Test Agentliyi

### 25 avqust

Dopinq nəzarəti xidmətlərinin göstərilməsi üzrə Saziş
- İdmanda etika üzrə Kanada Mərkəzi

### 1 sentyabr

Antidopinq xidmətlərinin göstərilməsi üzrə Saziş
– Türkiyə Antidopinq Komissiyası

### 14-15 Noyabr

Azərbaycan Ümumdünya Antidopinq Agentliyinin Bakıda İcraiyyə Komitəsinin və Təsisçilər Şurasının iclaslarına ev sahibliyi etdi

# Təhsil və Maarifləndirmə

7 Tədbir

26 Seminar

20 Vebinar

9 Təbliğat

# TƏHSİL VƏ MAARİFLƏNDİRMƏ

## Giriş

AMADA ölkədə antidopinq sahəsində idman ictimaiyyətinin və ümumiyyətlə cəmiyyətin məlumatlandırılması istiqamətində təlim və maarifləndirmə tədbirlərini həyata keçirir. Məlumatlandırma tədbirləri insan sağlamlığı üçün zərərli və təhlükəli olan dopinq vasitələrinin idmançılar tərəfindən istifadəsinin qarşısı alınması, həyat və sağlamlığının qorunmasının təmin olunmasında onların maarifləndirilməsi eləcə də idmanda ədalətli mübarizə şəraitinin yaradılması məqsədi daşıyır. İdmançılarımızın düzgün maarifləndirlməsi milli və beynəlxalq yarışlarda layiqli iştirakı, həmçinin ölkə hüdudlarından kənarda ölkənin idman nüfuzunun formalaşmasında  mühüm rol oynayır. İdmanda dopingə qarşı mübarizənin gücləndirilməsi baxımından antidopinq sahəsi üzrə qanunvericilikdə nəzrədə tutulmuş antidopinq qaydaları və beynəlxalq standartlara uyğun şəkildə idmançı və idmançının köməkçi heyətinin maarifləndirilməsi, hüquq və öhdəliklərini bilməsi mühüm əhəmiyyət kəsb edir.

Antidopinq təhsil proqramının əsas məqsədi idmançılar və idmançıların köməkçi heyətinin ehtiyaclarının uyğun olaraq maarifləndirməni təşkil etmək və təmiz idman dəyərlərini aşılamaqdır.

AMADA idman məktəblərində geniş antidopinq maarifləndirmə proqramlarını həyata keçirməyə başlayıb. Uşaq və yeniyetmələrə antidopinq dəyərlərinin düzgün aşılanması onların gələcək idman fəaliyyətində uğura aparan mühüm bir yoldur.

Antidopinq təhsil proqramı aşağıdakı qrupları əhatə edir: idmançı, idman yarışında iştirak edən və ya ona hazırlaşan idmançı ilə işləyən, onu müalicə edən və ya ona kömək edən hər hansı məşqçi, təlimçi, menecer, agent, komanda üzvü, vəzifəli şəxs, tibb işçisi, valideyn və ya hər hansı digər şəxs.

### Təhsil Proqramı müxtəlif mövzuları əhatə edir:

- Təmiz idman dəyərləri;
- İdmançılar, idmançıların köməkçi heyətinin hüquq və vəzifələri;
- Ciddi Məsuliyyət prinsipi;
- Dopinq istifadəsinin nəticələri, məsələn, fiziki və əqli sağlamlığa təsiri, sosial və iqtisadi təsiri;
- Nümunə Toplanma Prosesi;
- Antidopinq Qayda Pozuntuları;
- Sanksiyalar;
- Qadağan edilmiş siyahı;
- Qida əlavələrinin istifadəsi riskləri;
- Dərman istifadəsi və Terapevtik İstifadə üçün İstisnalar;
- Dərman istifadəsi və Terapevtik İstifadə üçün İstisnalar;

# Məsul şəxslər şəbəkəsi

AMADA antidopinq sahəsində biliklərin artırılması, dopinqlə mübarizə və təmiz idman dəyərlərinin təbliği istiqamətində daha geniş və effektiv maarifləndirmə aparılması üçün 2020-ci ildən idman federasiyalarından seçilmiş Məsul şəxslər şəbəkəsi yaratmışdır. 2021-ci ildə AMADA-nın Təhsil şöbəsi Məsul şəxslərlər üçün "Antidopinq maarifləndirmə proqramı" üzrə silsilə təlimlər təşkil etmişdir. Bu təlimlərin sonunda biliklərin mənimsənilməsi səviyyəsini yoxlamaq məqsədilə Məsul şəxslər onlayn qiymətləndirmə sorğusundan keçmişlər. AMADA idman federasiyalarının Məsul şəxsləri ilə sıx əməkdaşlığı bütün antidopinq məlumatlarının və yeniliklərinin idmançılara və idmançıların köməkçi heyətinə düzgün və çevik çatdırılmasında köməklik göstərir. Həmçinin mütəmadi olaraq bütün antidopinq maarifləndirmə materialları Məsul şəxslərə AMADA tərəfindən təqdim edilir.

# Təşviqat Proqramı

AMADA milli və beynəlxalq səviyyəli idman yarışlarında Antidopinq Təşviqat Proqramı təşkil edir. Təşviqat Proqramı çərçivəsində idmançıların çox olduğu yerdə onları cəlb edən "Təmiz idman" şüarı altında stend quraşdırılır. Antidopinq maarifləndirmə materialları, bukletləri tədbir iştirakçılarına paylanılır. Təşviqat zamanı antidopinq biliklərinin artırılması məqsədilə İpad üzərindən test suallarını düzgün cavablandıran idmançılar və idmançıların köməkçi heyəti AMADA tərəfindən müxtəlif təbliğat xarakterli hədiyyələr qazanırlar. Tədbir müddətində iştirakçılar üçün müxtəlif növ interaktiv və əyləncəli viktorinalar da təşkil edilir. İştirakçılar "Təmiz idman", "Təmiz qal", "Ədalətli oyun" şüarlı lövhəciklərlə müxtəlif video və foto şəkillər çəkdirib təmiz idmana dəstək olduqlarını göstərərək sosial şəbəkələrdə paylaşımlar edirlər.

## XXXII Tokio 2020 Yay Olimpiya və XVI Tokio Yay Paralimpiya Oyunları

Tokio 2020 Yay Olimpiya və Paralimpiya Oyunları ilə əlaqəli AMADA-nın Təhsil şöbəsi geniş maarifləndirmə proqramını həyata keçirmişdir. Bu proqram çərçivəsində idmançılar və onları müşayiət edən heyət üçün silsilə təlimlər keçirilib. Bu təlimlərdə Tokio 2020 Yay Olimpiya və Paralimpiya Oyunları zamanı Beynəlxalq Olimpiya Komitəsinin təlimatlarına əsasən antidopinq məsələləri ilə bağlı bütün vacib məlumatlar onlara çatdırımışdır.

### 24 saat Çağrı Mərkəzi

Bununla yanaşı idmançılara dəstək məqsədilə Yay Olimpiya və Paralimpiya Oyunları müddətində AMADA-nın Çağrı Mərkəzi fəaliyyət göstərmişdir. 24 saat fəaliyyət göstərən bu Çağrı mərkəzinə idmançıların və onların köməkçi heyətinin antidopinq məsələləri ilə bağlı gələn bütün sualları cavablandırılmışdır. AMADA-nın bütün bu layihələri həyata keçirilmə məqsədi idmançılarımızın Vətənimizi layiqincə və ləyaqətlə təmsil etməsinə dəstək olmaq və ölkəmizin idman nüfuzunu qorumaqdır.

### "Azərbaycan Tokio - 2020 Olimpiyada üçün ADEL"

ADEL Ümumdünya Antidopinq Agentliyi tərəfindən yaradılmış onlayn təlim platformasıdır
Bu platformada idmançılar və idmançının köməkçi heyəti antidopinq sahəsində bütün məlumatları əldə edə bilərlər. 2021-ci ildən etibarən AMADA ADEL Platformasında ilk dəfə olaraq Azərbaycan dilində "Azərbaycan Tokio - 2020 Olimpiyada üçün ADEL" kursunu təqdim edib. Bu kurs ilə bağlı AMADA idmançılar və idmançıların köməkçi heyəti üçün bir sira məlumatlandırıcı təlimlər təşkil edib.

Onlayn kursdan keçənlər Tokio 2020 Yay Olimpiya və Paralimpiya Oyunlarında antidopinq qaydaları, dopinq nəzarəti prosesi, habelə Terapevtik İstifadə üçün İcazə və dərmanların necə yoxlanılması haqqında məlumat əldə ediblər
Bu kurs vasitəsilə idmançılar həm də hüquq və vəzifələri, oyunlar zamanı onların üzərində yurisdiksiyası olan təşkilatlar haqqında biliklərini təkmilləşdirimişlər.

Həmçinin İdmançılar Məsləhətçi Komissiyasının bütün üzvləri "Azərbaycan Tokio - 2020 Olimpiyada üçün ADEL" təlim kursundan müvəffəqiyyətlə keçmişdir.

Tokioya yollanan idmançılar üçün antidopinq maarifləndirmənin əhəmiyyətini nəzərə alaraq Azərbaycan Milli Antidopinq Agentliyi İdmançıların və onların köməkçi heyətinin təlim kurslarından keçməsi üçün bütün lazımi dəstəyi göstərib. Tokio 2020 Yay Olimpiya və Paralimpiyaya lisenziya qazanmış hər bir idmançı və onları müşaiyət edən şəxslər bu təlim platformasından keçərək sertifikat əldə etmişdir.

# Seminarlar 2021

| No | Seminarın adı | Tarix | İştirakçı |
|---|---|---|---|
| 1. | Qeydiyyata alınmış Test Qrupuna daxil olan idmançılar (QTQ) üçün Antidopinq seminarı (4) | 16 fevral<br>22 fevral<br>24 fevral<br>1 mart | 16 idmançı<br>1 həkim |
| 2. | Azərbaycan Gimnastika Federasiyası | 5 mart | 34 idmançı |
| 3. | Azərbaycan Velosiped İdmanı Federasiyası | 4 may | 7 idmançı<br>2 valideyn<br>3 məşqçi |
| 4. | Azərbaycan Velosiped İdmanı Federasiyası | 6 may | 6 idmançı<br>1 məşqçi |
| 5. | Azərbaycan Poverliftinq Federasiyası | 8 iyul | 3 idmançı<br>2 məşqçi |
| 6. | Azərbaycan Atletika Federasiyası | 8 iyul | 13 idmançı |
| 7. | Azərbaycan Badminton Federasiyası | 22 iyul | 9 idmançı |
| 8. | Azərbaycan Milli Karate Federasiyası | 27 iyul | 22 idmançı |
| 9. | Ocaq İdman Klubu (Gimnastika) | 1 oktyabr | 83 idmançı |
| 8. | Kürdəmir Olimpiya İdman Kompleksi (Gimnastika) | 9 oktyabr | 50 idmançı |
| 10. | Sumqayıt şəhəri 1№ İOEUGİŞM (Basketbol, Güləş, Cüdo, Boks, Taekvondo, Futbol, Sambo, Ağır Atletika, Stolüstü tennis) | 22 oktyabr | 73 idmançı |
| 11. | Təhsil RİM-in 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi (RİOEUGİM) (Həndbol, Badminton, Basketbol, Cüdo, Futbol, Voleybol, Güləş) | 29 oktyabr | 20 idmançı |
| 12. | Təhsil RİM-in 3 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Şahmat Məktəbi (RİOEUGİŞM) | 1 noyabr | 17 idmançı |
| 13. | 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Şahmat Məktəbi (İOEUGİŞM) | 3 noyabr | 19 idmançı |
| 14. | 6 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi (İOEUGİM) (Cüdo, Həndbol, Karate, Taekvondo, Sambo) | 17 noyabr | 29 idmançı |
| 15. | 7 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi (İOEUGİM) (Voleybol, Basketbol, Qılıncoynatma, Boks, Üzgüçülük, Velosiped) | 24 noyabr | 16 idmançı |
| 16. | Təhsil RİM-in 11 nömrəli Uşaq-Gənclər İdman Məktəbi (UGİM) (Futbol, Basketbol) | 30 noyabr | 22 idmançı |

# Seminarlar 2021

| | | | |
|---|---|---|---|
| 17. | Azərbaycan Velosiped İdmanı Federasiyası | 2 dekabr | 24 idmançı<br>4 məşqçi<br>1 valideyn |
| 18. | Azərbaycan Milli Paralimpiya Komitəsi | 7 dekabr | 18 idmançı |
| 19. | Təhsil RİM-in 11 nömrəli Uşaq-Gənclər İdman Məktəbi (UGİM) (Tennis, Stolüstü tennis, boks, şahmat) | 17 dekabr | 43 idmançı |

# Vebinarlar 2021

| No | Vebinarın adı | Tarix | İştirakçı |
|---|---|---|---|
| 1. | Ümumdünya Antidopinq Məcəlləsi 2021 (para idmançılar üçün) | 22 yanvar | 35 iştirakçı |
| 2. | Dopinq Nəzarəti Prosesi (məsul şəxslər üçün) | 27 yanvar | 25 iştirakçı |
| 3. | Ümumdünya Antidopinq Məcəlləsi 2021 (Federasiyaların məşqçilər üçün) | 4 fevral | 125 iştirakçı |
| 4. | Ümumdünya Antidopinq Məcəlləsi 2021 (Federasiyaların tibb heyəti üçün) | 5 fevral | 30 iştirakçı |
| 5. | Antidopinq Qayda Pozuntuları və Sanksiyalar (məsul şəxslər üçün) | 12 fevral | 25 iştirakçı |
| 6. | Qadağan edilmiş siyahı və Tİİ (məsul şəxslər üçün) | 18 fevral | 25 iştirakçı |
| 7. | İdmançıların əsas hüquqları (məsul şəxslər üçün) | 10 mart | 25 iştirakçı |
| 8. | Antidopinq Qayda Pozuntuları və Dopinq Nəzarəti Prosesi (idmançılar üçün) | 17 mart | 60 iştirakçı |
| 9. | Antidopinq Qayda Pozuntuları və Dopinq Nəzarəti Prosesi (para idmançılar üçün) | 18 mart | 45 iştirakçı |
| 10. | Antidopinq Qayda Pozuntuları və Sanksiyalara (QTQ-ya daxil olan idmançılar üçün) | 14 aprel | 100 iştirakçı |
| 11. | Ən çox verilən suallar (İdmançılar üçün | 16 aprel | 50 iştirakçı |
| 12. | Ən çox verilən suallar (para idmançılar üçün) | 23 aprel | 35 iştirakçı |
| 13. | Qadağan edilmiş siyahı və Tİİ (idmançılar üçün) | 29 aprel | 50 iştirakçı |

# Vebinarlar 2021

| | | | |
|---|---|---|---|
| 14. | ADEL Təlim Platformasının təqdimatı (məsul şəxslər üçün) | 6 may | 25 iştirakçı |
| 15. | ADEL Təlim Platformasının təqdimatı (idmançılar üçün) | 4 iyun | 35 iştirakçı |
| 16. | ADEL Təlim Platformasının təqdimatı (para idmançılar üçün) | 10 iyun | 25 iştirakçı |
| 17. | Tokio Yay Olimpiya Oyunlarına lisenziya qazanmış idmançılar üçün "Tokio 2020 Antidopinq maarifləndirmə | 9 iyul | 45 iştirakçı |
| 18. | Tokio Yay Paralimpiya Oyunlarına lisenziya qazanmış idmançılar üçün "Tokio 2020 Antidopinq maarifləndirmə | 28 iyul | 36 iştirakçı |
| 19. | Tokio Yay Paralimpiya Oyunlarında iştirak edən idmançıların köməkçi heyəti üçün "Tokio 2020 Antidopinq maarifləndirmə" | 29 iyul | 15 iştirakçı |
| 20. | Sanksiyaya düşmüş və sanksiyadan qayıtmış idmançılar üçün Antidopinq Qayda Pozuntuları | 22 dekabr | 10 iştirakçı |

# Təbliğat 2021

| No | Tədbirin adı | Tarix | İştirakçı |
|---|---|---|---|
| 1. | Aerobika gimnastikası üzrə 9-cu Dünya Yaş Qrupları Yarışları | 21-23 may (21 may) | 100-ə yaxın iştirakçı |
| 2. | Aerobika Gimnastikası üzrə 16-cı Dünya Çempionatı | 27-29 may (27 may) | 100-ə yaxın iştirakçı |
| 3. | Milli Karate Federasiyasının Respublika Birinciliyi | 29 oktyabr | 100-ə yaxın iştirakçı |
| 4. | Cüdo üzrə Böyük Dəbilqə turniri | 5-7 noyabr (5 noyabr) | 100-ə yaxın iştirakçı |
| 5. | Batut Gimnastikası üzrə 35-ci Dünya Çempionatı | 18-21 noyabr (19 noyabr) | 250-ə yaxın iştirakçı |
| 6. | Batut Gimnastikası üzrə 28-ci Dünya Yaş Qrupları Yarışları | 25-28 noyabr (26 noyabr) | 250-ə yaxın iştirakçı |
| 7. | Taekvondo idman növü üzrə Yeniyetmə, Gənclər arasında Azərbaycan Birinciliyi və Böyüklər arasında Azərbaycan Çempionatı | 3 dekabr | 80-a yaxın iştirakçı |
| 8. | Sərbəst və yunan-roma güləşi üzrə böyüklər arasinda keçiriləcək "Azərbaycan çempionati" yarişları | 8 dekabr | 100-ə yaxın iştirakçı |
| 9. | Qılıncoynatma üzrə Azərbaycan Birinciliyi | 24 dekabr | 70-ə yaxın iştirakçı |

# Təbirlər 2021

| No | Tədbirin adı | Tarix | İştirakçı |
|---|---|---|---|
| 1. | Milli Olimpiya Komitəsi ilə birgə Tokio 2020 Yay Olimpiya Oyunlarına həsr olunmuş | 25 iyun | 60-a yaxın iştirakçı |
| 2. | Azərbaycan Güləş Federasiyası | 7 oktyabr | 7 idmançı |
| 3. | Azərbaycan Sambo Federasiyası | 7 oktyabr | 11 idmançı |
| 4. | Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin təşəbbüsü, Azərbaycan Velosiped İdmanı Federasiyası və Respublika Olimpiya Velosiped Məktəbi ilə birgə "İdmançılar dopinqə və narkotikə yox deyir!" adlı tədbir | 30 oktyabr | 50-ə yaxın iştirakçı |
| 5. | Peşakar idmançılar üçün Antidopinq dəyərləri (Futzal, İNBA, Muay-Thai, Ciu-citsu) | 20 dekabr | 18 idmançı |
| 6. | İdman Federasiyalarının Tibb heyəti və məsul şəxslər üçün Antidopinq Maarifləndirmə seminarı | 21 dekabr | 41 iştirakçı |
| 7. | İdmançının Köməkçi Heyəti üçün hüquqi seminar | 21 dekabr | 58 iştirakçı |
| 8. | Sərbəst və yunan-roma güləşi üzrə böyüklər arasinda keçiriləcək "Azərbaycan çempionati" yarişları | 8 dekabr | 100-ə yaxın iştirakçı |
| 9. | Qılıncoynatma üzrə Azərbaycan Birinciliyi | 24 dekabr | 70-ə yaxın iştirakçı |

# Təhsil tədbirləri





























# Media və Kommunikasiya

## KİV və sosial medianın antidopinq fəaliyyətində rolu

Şəffaflıq, hesabatlılıq, informasiya əlçatanlığı və sorğuların operativ cavablandırılması AMADA-nın media siyasətinin əsasını təşkil edir. AMADA mətbuatla əməkdaşlığa xüsusi əhəmiyyət verir. Antidopinq sahəsi üzrə media tərəfindən daxil olan bütün müraciət və sorğular istisnasız olaraq cavablandırılır. Sorğuların cavablandırılması zamanı müraciət edən KİV orqanının istəyinə uyğun format – yazılı açıqlama, müsahibə, videoçəkliş, verilişlərdə qonaq qismində iştirak seçilir. KİV-lə əməkdaşlıq həm də antidopinq maarifləndirməsi baxımından vacibdir. Dopinq nəzarətinin və təmiz idman dəyərlərinin əhəmiyyətini ictimaiyyətə dolğun çatdırılması üçün mətbuatın imkanları çox genişdir və AMADA bu imkanlardan maksimum faydalanmağa çalışır. Mətbuatla əməkdaşlığın mühüm istiqamətlərindən biri də, idman jurnalistlərinin antidopinq sahəsi ilə bağlı bilik və məlumatlarının artırılmasıdır.
Bu, antidopinq sahəsi ilə bağlı hazırlanan xəbərlərin düzgün və dolğun olması ilə yanaşı mediada antidopinq maarifləndirməsinin peşəkar və effektli şəkildə aparılması baxımından da vacibdir. 2021-ci il mətbuatla əməkdaşlıq baxımından zəngin olub. İl ərzində yuxarıda sadalanan istiqamətlərdə çoxlu sayda tədbirlər həyata keçirilib.
İctimaiyyətlə əlaqələr və antidopinq maarifləndirməsinin ən mühüm vasitələrdən biri də sosial mediadır. Sosial medianın geniş izləyici kütləsinə çıxışını nəzərə alaraq AMADA bu platformadan aktiv istifadə edir.
AMADA-nın Facebook, Instagram, Twitter, Linkedin və Tik-tok sosial şəbəkələrindəki hesablarının aktiv şəkildə istifadəsi ümumi media siyasətinin tərkib hissəsidir. Sosial şəbəkələrdə çoxlu sayda informasiya və maarifləndirmə xarakterli paylaşımlar edilir.
Eyni zamanda sosial şəbəkələrdə canlı müsahibələr və viktorinalar kimi müxtəlif layihələr həyata keçirilir.

## KİV-lə əməkdaşlıq

10 Aprel – Ədalətli İdman Günü ilə əlaqədar mətbuatda geniş maarifləndirmə işləri həyata keçirilmişdir. İdman Azərbaycan, "Xəzər" və CBC Sport televiziyalarında məhz bu günün əhəmiyyətinə və antidopinq sahəsinə həsr olunmuş verilişlər yayımlanmışdır.

İl ərzində AMADA-nın direktoru və əməkdaşları antidopinq sahəsinə həsr olunmuş çoxlu sayda verilişlərin qonağı olmuş, bundan əlavə antidopinq maarifləndirilməsinə həsr edilmiş veriliş və xəbər reportajları üçün müsahibələr vermişdir.

Milli Mətbuatın yaranmasının 146-cı ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirin keçirilməsində məqsəd dopinq nəzarətinin həyata keçirilməsi, o cümlədən ədalətli və təmiz idmanın təbliğində mətbuatın rolunu genişləndirmək, antidopinq sahəsi ilə bağlı idman jurnalistlərinin bilik və məlumatlarını artırmaq olub. Tədbirdə jurnalistlər üçün əyləncəli-intellektual viktorina keçirilmiş və qaliblərə hədiyyələr təqdim edilmişdir.

Pekin 2022 Qış Paralimpiya Oyunlarında dopinq nəzarətinə həsr olunmuş mətbuat konfransı keçirilmişdir. AMADA-nın direktoru Şəfəq Hüseynli keçirdiyi və ölkədə fəaliyyət göstərən bütün yerli televiziyaların nümayəndələrinin iştirak etdiyi mətbuat konfransında ilk dəfə olaraq Azərbaycan nümayəndəsinin dünyanın ən mötəbər beynəlxalq idman yarışlarından olan Qış Paralimpiya Oyunlarında Ümumdünya Antidopinq Agentliyinin (ÜADA) Müstəqil Müşahidəçi Qrupuna rəhbərlik etməsinin əhəmiyyəti və Müşahidəçi Qrupun missiyası ilə bağlı suallar cavablandırılıb.

AMADA İdmanda narkotik vasitələrlə mübarizəyə həsr olunmuş "Parlaq gələcək üçün narkotikə yox" mövzusunda tədbir keçirmişdir. Tədbirdə AMADA ilə yanaşı, Gənclər və İdman Nazirliyi, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsi və Dövlət Gömrük Komitəsinin nümayəndələri də iştirak etmişdir.
2021-ci ilin nəticələrinə həsr olunmuş mətbuat konfransı keçirmişdir. Tədbirdə AMADA-nın direktoru Şəfəq Hüseynli 2021-ci ilin yekunları, habelə AMADA-nın 5 illik fəaliyyəti ilə bağlı mətbuat nümayəndələrinə geniş məlumat vermiş və jurnalistlərin sualları cavablandırmışdır.

# Media və Kommunikasiya

## Sosial media layihələri

İl ərzində AMADA-nın Fəaliyyətinin sosial mediada yəni Facebook, İnstagram, Twitter və Linkedin sosial şəbəkələrində işıqlandırılması üçün ümumilikdə təxminən **500** paylaşım edilmişdir. Bu paylaşımlar əsasən antdiponiq sahəsinə aid olsa da, əlamətdar hadisə və günlərlə də bağlı video və foto vizuallar hazırlanaraq paylaşılıb. Bundan əlavə antdiopinq sahəsində maarrifləndirməsi və təbliğat xarakterli **35** ideoçarx hazırlanaraq sosial şəbəkələrdəki səhifələrdə yerləşdirilmişdir.

2021-ci ildə sosial mediada instaqram canlı layihəsinə start vermişdir. Layihənin məqsədi təmiz idman dəyərlərini və cəmiyyətə örnək olan dürüst idmançıları təbliğ etməkdir. Layihəyə AMADA-nın İdmançılar Məsləhətçi komissiyasının üzvləri məşhur idmançılar İlham Zəkiyev, Hacı Əliyeva və Aynur Məmmədova iştirak etmişlər.

AMADA il ərzində sosial mediada maarifləndirici viktorina layihəsini də davam etdirmişdir. İctimaiyyət arasında antidpoinq biliklərinin artırılması məqsədi ilə keçirilən viktorinalarda çoxlu sayda sosial media izləyicisi iştirak etmiş və viktorina qalibləri mükafatlandırılmışdır.

## İctimai və sosial məsuliyyət tədbirləri

AMADA öz fəaliyyətində daim sosial məsuliyyət prinsipinə xüsusi əhəmiyyət verir. AMADA özünün vəzifə və öhdəliklərini yerinə yetirməklə yanaşı qlobal və yerli müstəvidə ictimai və sosial çağırışlara qarşı da həssaslıq nümayiş etdirir. 2021-ci ilə ərzində də bir sıra ictimai və sosial xarakterli tədbirlər və layihələr həyata keçirilmişdir.

44 günlük Vətən müharibəsindəki şanlı qələbə bu il ərzində də diqqətdə saxlanılmışdır. 2021-ci ilin fevral ayında AMADA-nın əməkdaşları öz təşəbbüsləri ilə işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılmasına dəstək məqsədi ilə ianə aksiyası həyata keçirmişdir. Bütün əməkdaşları öz əmək haqlarından ümumilikdə 14 580 manat vəsaiti könüllü olaraq "Qarabağ Dirçəliş Fondu"na köçürüb.

Noyabrın 6-da Dənizkənarı Parkda AMADA-nın təşkilatçılığı ilə "Azərbaycan təmiz qələbələr qazanır!" adlı tədbir keçirmişdir. Zəfər Gününə həsr olunmuş tədbirdə AMADA-nın rəhbərliyi və kollektivi, İdmançılar Məsləhətçi Komissiyasının üzvləri olan məşhur idmançılar iştirak etmişdir. Paytaxt sakinlərinin, xüsusilə də uşaqların böyük marağına səbəb olan tədbirdə vətənpərvərlik və sağlamlığı təbliğ edən müxtəlif oyunlar keçirilmiş və iştirakçılara hədiyyələr verilmişdir.

İl ərzində Şəhid ailələri də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, qadın şəhid hərbçi Arəstə Baxışovanın, habelə Şəhid jurnalistlər Məhərrəm İbrahimov və Sirac Abışovun ailələri bayram günlərində ziyarət edilmiş və bayram sovqatları verilmişdir.

Sosial məsuliyyət tədbirləri çərçivəsində il ərzində 5 dəfə 5 dəfə "Təmiz Dünya" qadın və uşaq sığınacağına ərzaq və zəruri gigiena vasitələrindən ibarət yardımlar edilmişdir.


AMADA


AMADA


STAY CLEAN
AMADA


AMADA
22 iyul
Milli Mətbuat
Günü
AMADA


AMADA


AMADA
Noyabr
Qarabağ Azərbaycandır!


AMADA
Qarabağ Azərbaycandır!


Gələcəyimizi birlikdə düşünək
Narkomaniyaya
YOX deyək !!!
AMADA

AMADA

+994 12 599 08 28
+994 50 218 82 06

office@amada.az
www.amada.az